Adımız məfkurəmizdir

14 - 27 mart 2023-cü il

Türküstan

www.turkustan.az



Ömrünü xalqına sərf edən qadın - Həmidə Cavanşir

Aynur Turan

(əvvəli ötən sayımızda)

Həmidə xanım 1918-1920-ci illərdə erməni cəlladlarının ölkəmizin hər yerində soydaşlarımıza qarşı törətdikləri vəhşiliklərə, kütləvi qırğınlara kəskin mövqeyini nümayiş etdirib. O, öz silahlı atlı dəstəsi ilə Əsgəran qalasını yarıb keçərək, Şuşaya yardım göstərilməsinə nail olub. Əsərdə haqlı olaraq göstərildiyi kimi, Azərbaycan ədəbiyyatına diqqət və qayğı Həmidə xanım Cavanşirin maarifçilik fəaliyyətində xüsusi bir yer tutub. Atası Əhməd bəyin əsərlərini toplayıb, Tiflisdə kitab şəklində çap etdirməsi, "Molla Nəsrəddin" jurnalının nəşrinə, onun əməkdaşlarına, yazarlara göstərdiyi maddi və mənəvi yardımlar, sonralar Mirzə Cəlil və Mir Cəlalın əsərlərinin rus dilinə tərcümə edərək çap etdirməsi bunu aydın göstərir. Həmidə xanımın görkəmli ziyalılar, Mirzə Cəlil və digər 'Molla Nəsrəddin'çi şair və yazıçılar haqqında qələmə aldığı xatirələr də bu gün yüksək əhəmiyyətə malikdir. Onun "Xatirələrim" adlı kitabı Azərbaycan memuar ədəbiyyatının ən qiymətli nümunələrindən hesab olunur. Ə.Nəcəfov 'Həmidə xanım Məmmədquluzadənin maarifçilik fəaliyyəti" adlı kitabında çox vacib tarixi məqamlara toxunub, tutarlı faktlarla Həmidə xanım Məmmədquluzadənin həyat və fəaliyyəti haqqında bilgilərimizi daha da zənginləşdirib. Tədqiqat əsəri bu səbəbdən də geniş oxucu auditoriyasının, mütəxəssislərin diqqətini çəkib.

Həmidə Məmmədquluzadə dövrünün tələbi ilə Azərbaycan ədəbiyyatı və maarifçiliyi qarşısında böyük xidmətlər göstərən, öz sahəsində durmadan işləyib, xalqa, vətənə səmərəli töhfələr verərək böyük təsir göstərib.

Maarifçilik və xeyriyyəçilik fəaliyyəti ilə adını Azərbaycan ictimai fikir tarixinə həkk edən Həmidə xanım Cavanşir-Məmmədquluzadə XIX yüzilin sonu, XX yüzilin birinci yarısında xalqımızın millimədəni inkişafında ciddi xidmətləri olan xanım aydınlardandır.

Azərbaycan tarixində ilk məruzəçi qadın kimi də xatırlanan Həmidə xanım Cavanşir-Məmmədquluzadə hər zaman ədəbiyyat və mədəniyyətimizin nümayəndələrinə xüsusi həssaslıqla yanaşmışdır. Həmidə xanım Cavanşir-Məmmədquluzadənin xeyirxahlığı, insanpərvərliyi ilə bağlı faktlar yetərincə çoxdur.

Həmidə xanım Kəhrizli kəndində tibb məntəqəsi, toxuculuq emalatxanası, 1909-cu ildə isə Mirzə Cəlilin iştirak və köməyi ilə 30 oğlan və 10 qızın oxuduğu məktəb açmışdır. Həmidə xanım Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1906-1907) yaradıcılarından idi. 1912-ci ildə o, Zaqafqaziya pambıqçılarının 13-cü qurultayında çıxış edərək təsərrüfatın bu sahəsinin inkişaf etdirilməsi üçün faydalı təkliflər irəli sürmüşdür.

Evliliklərinin ilk illərində Həmidə xanıma çatdırırlar ki, epidemiya Qarabağ uşaqlarının axırına çıxmaqdadır. O, peyvəndlə bağlı bir çox tibbi və maddi ehtiyat tədarükünə başlamaqla bərabər, xəstəliklərə qarşı "türkəçarə"likdən savayı heç bir çarə bilməyən anaları maarifləndirməkçün bir məruzə də hazırlamağa başlayır. Bunun daha təsirli və korrekt çıxması üçün ərinə (bir az da çəkinə-çəkinə) müraciət edir. İşləri başından aşan Mirzə Cəlil isə (bu xahişi can-başla yerinə yetirsə də), sonda Həmidə xanımın: "Mirzə, hazırdırmı?" sualına özünəməxsus yumorla cavab verir: "Hazırdır e, amma... arvad nədir, "doklad" nədir?.."

Həmidə xanım həm də alovlu bir vətənpərvər, türkçülük aşiqi idi. Hətta türkçülük haqqında bəhs etməyin təhlükəli olduğu vaxtlarda o, xatirələrində Nuru Paşadan bəhs edirdi. O, yazırdı: "Təqribən mayın ortalarında Mirzə Cəlil adəti üzrə Ağdama getdi. Axşamçağı isə evə tanımadağımız bir gənclə qayıtdı. Sən demə, bu, Nuru Paşa imiş. Cəlil onunla Ağdamda tanış olmuşdu. Sözarası paşa ona demişdi ki, iki aydır istirahət görmür, çox yorğundur. Paşa çox istəyirmiş ki, hardasa bir az dincəlsin. Belə də Mirzə Cəlil paşanı kəndə dincəlməyə dəvət edir və onlar birlikdə gəlirlər. Nəhayət, söz-söhbət dolaşdı ki, türklər gəlirlər. Türklər ölkədə nizam-intizam yaratmaq və Şuşa yolunu açmaq üçün gəlirdilər. Hər kəs türklərin gəlişini gözləyir və Şuşada böyük bişavaz tədbirləri görülürdü. Şəhər bəzədilmiş, qala qapılarının girəcəyində bir neçə zəfər tağı bəzədilmişdi. Bu zəfər tağlarından birini Şuşa qadınları adından mən ucaltmışdım. Ağ kəlağayımın üzərinə tikmə naxışla hilal və ulduz salmış və türkcə belə bir şuar yazmışdım: "Gün gələcək, həqiqət günəşi doğacaq, əsarətdə qalan Ana–Şərq istiqlal qazanacaq"!

Həmidə xanım sərişteli pedaqoq kimi də xalqın sevimlisi olmuşdu. O, 1912-ci ildən Kəhrizlidə öz vəsaiti hesabına açdığı məktəbdə dərs deyir, yeni savadlı nəsillərin yetişməsinə əmək sərf edirdi; lakin sovet hakimiyyətinin qurulması bir çox zadəgan ailələrinin nümayəndələri kimi, Həmidə xanımın da həyatına zərbələr vurdu. Onun doğma kəndindəki atababadan qalma torpaqları müsadirə olundu, zadəgan əsilli olduğundan səsvermə hüququ əlindən alındı. Bu səbəbdən Bakıya köçməyə məcbur qalan Həmidə xanım, ömrünün sonunadək burada yaşamalı oldu.

O, Cəlil Məmmədquluzadənin vəfatından sonra da ictimai fəallığına davam etmiş, Azərbaycanın ədəbi-mədəni həyatında fəal mövqe tutmuşdu. Həmidə xanım Yazıçılar İttifaqına üzv seçilmiş, həyat yoldaşının əsərlərini tərcümə etmiş, ədiblə, bağlı dəyərli "Xatirələrim" kitabını yazıb nəşr etdirmişdi. Bu kitab həm də onun yazıçı-publisist istedadının bariz göstəricisi idi. O, eyni zamanda xalq yaradıcılığı nümunələrinin böyük hissəsini toplamış folklorçu kimi də ədəbiyyat tariximiz üçün mühüm işlər görüb.

Həmidə xanım Cavanşir-Məmmədquluzadə 1955-ci il 6 fevral tarixində vəfat etmiş, Fəxri Xiyabanda mənəvi dayağı olduğu ömür-gün yoldaşı Cəlil Məmmədquluzadənin məzarının yanında dəfn olunmuşdur. O, 82 illik ömrünü şam kimi vətənin xoşbəxt sabahları uğrunda yandırdı. Lakin geriyə xatirələrdə yaşayan və hər zaman haqqında danışılacaq ibrətamiz həyat hekayəsi qaldı.Vətən də bu nəcib xanım aydınının xidmətlərini unutmadı, adını əbədiləşdirdi, örnək ömür yolunu, gördüyü işləri bir-birindən dəyərli kitablarda, tədqiqatlarda tarixləşdirdi. Fəaliyyəti haqqında monoqrafiya və dissertasiyalar yazıldı, ABŞ-da yaşayan alim, əslən Güney Azərbaycandan olan Dr.Həsən Cavadi xatirələrini ingiliscəyə çevirdi. Bu gün Ağcabədi rayonunun Kəhrizli kəndində - doğulub-böyüdüyü, Mirzə Cəlillə də ən xoşbəxt günlərini yaşadığı 4 otaqlı evin muzey kimi fəaliyyət göstərməsi, ondan yadigar qalan əl işləri, tikmələr, məişət əşyaları, ailə fotoarxivi və əlyazmaların qorunub saxlanması, Bakının Sabunçu rayonunun küçələrindən birinə adının verilməsi Qarabağın xeyirxahlıq mələyinə dövlət qayğısının və xalq sevgisinin təzahürüdür.

Bir də öz sərvətindən keçərək himayədar olduğu və bizlərə miras qoyduğu 'Molla Nəsrəddin". Rahat uyu, ey amalı Vətənin işıqlı istiqbalı olan Həmidə xanım Cavanşir! Min illər keçsə də, bu xalqın övladları hər zaman xalqın üçün döyünən ürəyinin səsini duyacaq və sənin yolunla gedəcək.



Evliliklərinin ilk illərində Həmidə xanıma çatdırırlar ki, epidemiya Qarabağ uşaqlarının axırına çıxmaqdadır. O, peyvəndlə bağlı bir çox tibbi və maddi ehtiyat tədarükünə başlamaqla bərabər, xəstəliklərə qarşı "türkəçarə"likdən savayı heç bir çarə bilməyən anaları maarifləndirməkçün bir məruzə də hazırlamağa başlayır. Bunun daha təsirli və korrekt çıxması üçün ərinə (bir az da çəkinə-çəkinə) müraciət edir. İşləri başından aşan Mirzə Cəlil isə (bu xahişi can-başla yerinə yetirsə də), sonda Həmidə xanımın: "Mirzə, hazırdırmı?" sualına özünəməxsus yumorla cavab verir: "Hazırdır e, amma... arvad nədir, "doklad" nədir?.."

Oxu, oxut, abunə ol!